NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 1-(24)2023



**Bakı – "Elm və təhsil" – 2023**

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 19 may 2023-cü il tarixli (protokol № 2)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (24)**
**Bakı, “Elm və təhsil” nəşriyyatı, 2023, 120 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər “risalə” adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə “Risalə” adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. “Risalə” elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
## *Elmi araşdırmalar jurnalı*

*№1.2023(24)*

**Mündəricat**

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Köç ədəbiyyatının Azərbaycan fenomeni: Vətəndən Vətənə mühacirətin bədii və elmi irsi
doi.org/10.30546/2702-0034.1.24.2023.7

*BAXŞIYEVA Ülkər.*
Nizaminin "Leyli və Məcnun" məsnəvisi və "hami-ovçu" arxetipindən istifadə məsələləri
doi.org/10.30546/2702-0034.1.24.2023.21

*DƏMİROVA Cəmilə.*
İbn əl-Qatta və onun "Əd-durra əl-xatira" antologiyası
doi.org/10.30546/2702-0034.1.24.2023.28

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*DADAŞOVA İlahə.*
Şahin Fazilin "Divan"lar silsiləsində "Beşinci divan" strukturu, tematikası və ideya istiqamətləri39
doi.org/10.30546/2702-0034.1.24.2023.39

*MƏMMƏDLİ Şərqiyyə.*
XX əsrin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri: forma və janr kontekstində
doi.org/10.30546/2702-0034.1.24.2023.50

*MƏHƏRRƏMZADƏ Tamilla.*
Məmmədağa Sultanovun şeir yaradıcılığı (XX əsrin 30-cu illərinin dövri mətbuat materialları əsasında)
doi.org/10.30546/2702-0034.1.24.2023.60

*MUSTAFAYEVA Göyərçin.*
Çağdaş uyğur ədəbiyyatının şəhid şairi Lütfulla Mütəllip yaradıcılığında milli mücadilə
doi.org/10.30546/2702-0034.1.24.2023.69

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABDULXALİKOV Firdavs.*
Миниатюры Камал Ад-Дина Бехзада на «Хамсе» Низами Гянджеви –
бесценные шедевры восточного изобразительного искусства
doi.org/10.30546/2702-0034.1.24.2023.83

*QƏDİROVA Afət.*
Həyatının mənasını xalqa xidmətdə görən dahi
doi.org/10.30546/2702-0034.1.24.2023.94

*BABANLI Tomiris.*
Kitablara bağlı ömür
doi.org/10.30546/2702-0034.1.24.2023.102

https://doi.org/10.30546/2702-0034.1.24.2023.102

**Tomiris BABANLI**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**tomiris_babanly@hotmail.com**

# KİTABLARA BAĞLI ÖMÜR

**Açar sözlər:** Azərbaycan Milli Ensiklopediyası, "Boz oğuz" nəşriyyatı, "Məcməüş-şüəra" ədəbi məclisi

**Keywords:** Azerbaijan National Encyclopedia, "Boz oguz" publishing house, "Majmaush-shuara" literary assembly

**Ключевые слова:** Азербайджанская Национальная Энциклопедия, издательство «Боз огуз», литературный меджлис «Меджмеуш-шуара»

Qarşımda köhnə qovluqlar... içində köhnə saralmış fotoşəkillər... Fotoların arxasında müxtəlif illər qeyd olunub. Müxtəlif insanlar və talelər... Bu fotolardan boylananların əksəriyyəti çoxdan əbədiyyətə qovuşub... Elə onları toplayıb qovluq-dakı zərflərdə səliqə ilə qoruyub saxlamış insan da çoxdan həyatdan köçüb...

Başqa bir qovluğu açıram... İçində saralmış vərəqlərdə tərcümeyi-hallar toplanmış yazıları bir-bir nəzərdən keçirirəm. Bəziləri şagird dəftərinin vərəqlərində çox geniş, bəziləri sadə bloknot kağızında müxtəsər, bəziləri də ovuc boyda kiçik vərəqlərdə bir-iki rəqəmdən ibarət qeydlərdir.

Daha bir qovluq... saralmış, köhnə qəzet və jurnallar, fəxri fərmanlar, təşəkkür-namələr, doğum haqqında şəhadətnamələr, kimlərəsə məxsus sənədlər və daha nələr, nələr, nələr...

Qovluqların ən azı 30-40 illik tarixi var. Şəkillərdəki insanlar isə XIX-XX yüzillərdə yaşamış dəyərli insanlardır. Taleləri, ömür yolları, peşələri müxtəlif olsa da, dünyaya baxışları fərqlənsə də, onları birləşdirən bir məkan var: hamısı bir kəndin – Buzovnanın övladlarıdır; bu kəndin havası, suyu, çörəyi ilə böyüyüb, boya-başa çatıb, öz kəndinin, şəhərinin, ölkəsinin daxilində və onun hüdudlarından kənarda vətəninin adını ucaldan, el-obasının mədəniyyətini, ədəbiyyatını, tarixini, elmini dünyaya tanıdan insanlar...

Bu qovluqlar buzovnalı ziyalı, ensiklopedist, jurnalist, lüğətşünas və naşir Rəhimağa İmaməliyevin vaxtilə Abşeronda ilk dəfə 1993-cü ildə təsis etdiyi "Boz oğuz" ailə nəşriyyatının arxivində – "Vətənnamə" adlı Buzovna Ensiklopediyasında işıq üzü görmək üçün mühafizə olunub... Və əgər ömür vəfa etsəydi, Rəhimağa müəllim bu kitabı 25 il əvvəl nəşr edəcəkdi...

Rəhimağa Əmir oğlu İmaməliyev 24 yanvar 1937-ci ildə Buzovnada balıqçı ailəsində dünyaya göz açıb. Onun mənsub olduğu İmaməliyevlər nəsli Buzovnanın köklü nəsillərindən hesab edilir. Nəslin əcdadı Qayabəy Buzovnada Daşlı həyəti adlanan məkanda ilk məskunlaşan insanlardan idi. Həyət qaya üzərində bina olun-duğu üçün bura Qayabəyin adına uyğun olaraq Daşlı həyəti adlanıb. Amma nəsil öz soyadını Qayabəyin nəvəsi – oğlu Daşdəmirin oğlu İmaməlinin adından götürüb. Hacı İmaməli Azərbaycanın nüfuzlu ruhanisi, ilahiyyatçı, müdərris, xeyriyyəçi, maarifpərvərlərindən biri olmuşdur. Ruhani, islamşünas və maarifpərvər kimi yetişməsində atasının böyük rolu olub. O, ilk dini təhsilini atasından, ali dini təhsilini isə Bağdad, Qəzvin, Təbriz, Qum, İsfahan və Xorasan üləmalarından almış, Hafizi-Quran kimi tanınmışdır. Dövrünün bir çox din adamları kimi, o da ilahiyyat, fiqh

(hüquq), islam, şəriət, müqəddəslər tarixini, həmçinin klassik Şərq ədəbiyyatını, milli muğam, xalq təbabəti, fəlsəfəsi, məntiqi və Quran təfsirini mükəmməl bilmişdir. Ərəb, fars, qədim türk, cığatay dilləri və mədəniyyətlərini mənimsəmişdir. Uzun ömür yaşamış, möminlik etmiş, milli maarifin, mədəniyyətin inkişafı yolunda çalışmış, şəxsi mülkündə mədrəsə-mollaxana açmışdır [3, 196]. Hacı İmaməlidən sonra onun oğlu Kərbəlayı Əziz də atasının yolunu davam etdirmiş, şəxsi mülkündə xeyriyyə məqsədilə mədrəsə açmış, kəndin övladlarına islam, şəriət tarixindən, ərəb-fars dillərindən, Qurandan dərs demiş, klassik Şərq alim və şairlərinin əsərlərini tədris etmişdir. Buzovnanın və ətraf kəndlərin çoxsaylı ruhani və ziyalıları onun təsis etdiyi mədrəsənin yetirmələri olmuşlar [3, 217]. Beləliklə, bu cür ziyalılardan sonra gələn nəsillər də babalarının tutduğu maarifçilik yolunu davam etdirmiş, hər biri çalışdığı sahədə öz bacarığı, biliyi ilə seçilmişdir. Nəslin əksər nümayəndələri tibb sahəsində fəaliyyət göstərmiş, adlı-sanlı mütəxəssislər kimi şöhrət qazanmışlar.

Bəli, Rəhimağa müəllim belə bir nəslin nümayəndəsi idi. Ot kökü üstə bitər, deyib babalarımız. Rəhimağa müəllim də babalarının maarifçilik ənənələrinə sadiq qalaraq, öz yolunu dəqiq müəyyənləşdirmişdi. Kiçik yaşlarında babasının əmisi oğlu, şair, müdərris Məşədi Azərin evində təşkil olunan “Məcməüş-şüəra” ədəbi məclisinin gizlicə dinləyicisi olmuşdu. Məclisin iştirakçıları arasında bir çox görkəmli şair və qəzəlxanları görmüş, onların bədahətən yaratdığı bir çox şeir və qəzəllərin ilk balaca dinləyicisi olmuşdu. O, atasının təbirincə, şairə “Azər əmioğlu” deyə müraciət edirdi. Məşədi Azər də onu çox istəyirdi. Elə “Rəhimağa” adını da atama Məşədi Azər vermişdi. Bu ad Buzovnada o zamana qədər eşidilmədiyindən nənəm Məşədi Azərdən nə üçün belə bir ad seçdiyini soruşmuşdu. O da cavabında “Qoy müqəddəs adlardan olan Rəhim adını daşısın. Rəhimli və ağayana kişi olsun” demişdi. Məşədi Azər balaca Rəhimağanın şeirə həvəs göstərdiyini sezmişdi. Odur ki, Buzovnada bağ evi olan Məmməd Səid Ordubadiylə Azərin yazışmalarını bir-birinə çatdırmaqda bu balaca oğlan yaxın vasitəçi olmuşdu [3, 221]. Rəhimağa müəllimin ədəbiyyata böyük marağı məktəbliykən özünü daha qabarıq göstərdi. Buzovnada əvvəlcə 206, daha sonra 125 nömrəli məktəblərdə təhsil aldığı illərdə müəllimi Heydər Eyvazovun klassik ədəbiyyatı tədris etməsi onun ürəyində şeirə, qəzələ böyük sevgi oyatmışdı. Ümumiyyətlə, Heydər müəllim onun idealı idi. Demək olar ki, bütün klassiklərin yaradıcılığını əzbər bilirdi. Məhz ona görə də müəlliminin ən əziz şagirdi idi.

Rəhimağa müəllim sənətə-sözə qiymət verən adam idi. Muğam sənətinin vurğunu idi. Özünün də gözəl səsi vardı, muğamlarımızı məharətlə ifa edirdi. İlk gənclik illərində hətta xanəndə olmaq arzusu da ürəyində baş qaldırmışdı. Bəzən xanəndələrin ifasında səhvləri sezib əsəbiləşirdi. Muğam ustadlarından yalnız Hacıbaba Hüseynovun ifasını sevirdi. Onu dinləməkdən doymazdı. Həmişə də: “Həci yekdür! Ondan başqa yalandur!” deyərdi. Xanım müğənnilərdən Şövkət Ələkbərova, Rübabə Muradova, Nərminə Məmmədova, Elmira Rəhimovanın ifalarını xoşlayardı. Qarmon ifaçılarından Zakir Mirzəyevi bəyənirdi, qaboy ustası Kamil Cəlilova böyük rəğbəti var idi. Kamilin haqqında ilk məqaləni də atam yazmışdı (Burada bir haşiyə çıxmaq istəyirəm: Kamil Cəlilov həm də bizə qohum idi, onun xalası oğlu xanəndə Nəriman Əliyev anamın dayısı qızı Xalidə xalanın həyat yoldaşı idi. Anam uşaqlıqdan Buzovnada nənə-baba himayəsində Kamil və Nərimanla birlikdə böyümüşdü, Xalidə xalanı isə hamı anamın bacısı bilirdi).

Rəhimağa müəllim muğamı sevdiyi kimi, klassik poeziyaya da dərindən bələd idi. Onun kitabxanasında Şərq şairlərinin, xüsusilə də Azərbaycan klassiklərinin

əsərləri qiymətli xəzinə kimi qorunurdu. Kitablar Rəhimağa müəllimin həyatı idi. Çox zəngin kitabxanası vardı. Ora hamı üçün gizli xəzinə idi. Heç kim o kitablara toxuna bilməzdi. Yalnız kitabsevər və kitaba qayğı göstərənlərə bu kitabxananın qapıları açıq olardı. O adamlardan biri də mən idim. İldən-ilə zənginləşən kitabxanada hər dildə kitaba rast gəlmək mümkün idi. Rəhimağa müəllim hər il SSRİ-nin müxtəlif nəşriyyatlarının tematik planlarını alıb nəzərdən keçirər və dəstə-dəstə poçt açıqcalarına həmin kitabların, onların müəlliflərinin, nəşriyyatlarının adını yazaraq göndərər, sifariş edərdi. Onun maraq dairəsi çoxsahəli idi – tarix, ədəbiyyat, fəlsəfə, tibb, astronomiya, lüğətlər və s. Hətta mənim üçün ingilis dilində lüğətlər, anam üçün biologiyaya aid, bibim həkim olduğu üçün anatomiyaya aid kitablar da sifariş edərdi.

Kitabxanadan istifadə edənlərdən biri də anamın qohumu (dayısı nəvəsi) gənc və istedadlı Leyla idi. Atam onu uşaq vaxtından çox istəyirdi. Ağıllı, tərbiyəli, dərs əlaçısı olan Leylanın oxumağa güclü həvəsi vardı. Tez-tez kitab üçün atama müraciət edəndə atam böyük məmnuniyyətlə onu öz kitabxanasından istifadə etməyə icazə verərdi. Çünki Leylanın kitabsevər və səliqəli olduğunu bilirdi. Leylada nəşriyyat işinə elə həvəs yaranmışdı ki, sonradan Bakı Dövlət Universitetində kitabşünaslıq və redaktəetmə ixtisası üzrə təhsil aldı. Hazırda "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının müəllimi vəzifəsində çalışır, tarix üzrə fəlsəfə doktorudur. Elə Rəhimağa müəllimə və "Boz oğuz" nəşriyyatının yaranması və fəaliyyətinə həsr olunmuş kitabın da müəllifi Leyla Abasovadır. Yazıçı Kənan Hacı da ədəbi fəaliyyətə başlamasında atamı öz ilk müəllimi hesab edir: "Mən "Məşədi Azər təzkirəsi" kitabımı unudulmaz müəllimim Rəhimağa İmaməliyevin ruhuna həsr etmişəm. Özümü xoşbəxt hesab edirəm ki, yazı-pozuya başladığım ilk illərdə "Boz oğuz" nəşriyyatında onlarla birlikdə çalışmışam və böyük məktəb keçmişəm. Rəhimağa müəllimin, Validə xanımın mənə inanması, etimad göstərməsi üzərimə böyük məsuliyyət qoyurdu və var qüvvəmlə onların bu etimadını doğrultmağa çalışırdım. Bu gün qazandığım bütün uğurlarıma görə özümü məhz onlara borclu hesab edirəm. Hər uğurumda onların danılmaz payı var. Bu gün Azərbaycan mətbuatında, ədəbiyyatında "Kənan Hacı" imzası mövcuddursa, bu, birbaşa İmaməliyevlərin xidmətidir. Bunu dəfələrlə yazmışam, demişəm..." [6] Atamın vəfatından sonra da bu gənclər anam Validə xanımla daim əlaqə saxlayır, atamla bağlı hər bir işdə ailəmizin yanında olmağı özlərinə borc bilirlər.

Kitablar Rəhimağa müəllim üçün övladları qədər əziz di. Bəlkə elə buna görə də 1957-ci ildə ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuşdu. Ailədə tək çalışan atası olduğu üçün əmək fəaliyyətinə fəhləlikdən başlamışdı. Yüksəkixtisaslı kitabxanaçı-biblioqraf ixtisasına yiyələnmək üçün rəhbər kadrlar hazırlayan ali jurnalist və nəşriyyat sənətkarlığı kurslarında təhsilini təkmilləşdirmişdi. Azərbaycan Dövlət Elmi-Texniki İnformasiya İnstitutunda nəşriyyat redaksiyasında redaktor (1960-1962), nəşriyyat-redaksiya şöbəsinin müdiri (1963-1964), məsul katibin müavini (1965) vəzifələrində çalışmışdı. Lakin dərin biliyi, savadından xəbər tutan Xalq şairi Rəsul Rza onu Azərbaycan Sovet Ensiklopediyasına (ASE) böyük elmi redaktor vəzifəsinə dəvət edir. Rəsul Rzanın ona böyük hörməti vardı. Elə ASE-nin sonrakı baş redaktoru olmuş akademik Cəmil Quliyev də onun xətrini əziz tuturdu. Bu ehtiramı atam öz biliyi, işə ciddi və səliqəli münasibəti, həm də dürüstlüyü ilə qazanmışdı. Ensiklopediyada çalışdığı illərdə bir dəfə də olsun məzuniyyət götürüb dincəlməmişdi. O, mənim yadımda hər zaman üstündə səliqə ilə cild-cild kitablar və qəzet-jurnallar yığılmış masa arxasında

oturmuş, bir əlində siqaret, qarşısında balaca armudu stəkanda tünd dəmli çay, iş başında bütün ciddiyyətilə çalışan adam kimi qalıb.

Ensiklopediya mənim valideynlərimin həyatında doğma ocaq, ömürlərini bağladıqları əziz məkandır. Anam Validə xanım İmaməliyeva da atamla birlikdə, çiyin-çiyinə uzun illər burada çalışmışdır. Anam indi də Biologiya, kənd təsərrüfatı və tibb redaksiyasında müdir müavini vəzifəsində fəaliyyət göstərir. Onların taleyi məktəb illərindən birləşmiş, daha sonra universitetdə tələbəlik illərində, Azərtədrisnəşrdə, nəhayət, Ensiklopediyada davam etmişdir. Onlar sədaqətli dost, həmkar, ailə başçısı və bir-birinə vəfalı can yoldaşı olmuşlar.

Valideynlərimin bircildlik "Azəri ensiklopediyası"nın (1967), oncildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın (1967-1987) hazırlanmasında əvəzsiz xidmətləri olmuşdur. Dövri mətbuatda, radio-televiziyada, universal sahə ensiklopediyalarında və digər nəşrlərdə çoxlu elmi, tarixi, ədəbi-bədii məqalələrin, oçerk, reportaj, tərcümələrin müəllifidirlər. İkicildlik "Uşaq ensiklopediyası"nın (1988) hazırlanması məhz atamın adı ilə bağlıdır. Onu da qeyd edim ki, bu ensiklopediya üçün atam mənə də bir çox məqalələrin yazılmasını həvalə etmişdi. Uşaq ensiklopediyasının çapdan çıxması barədə yazısında Rəhimağa müəllim qeyd edirdi: "Nəşriyyatlarımız son illərdə uşaqların mənəvi təbiyəsinə kömək edən, onların bir vətəndaş kimi formalaşmasına ciddi təsir göstərən kitabların çap olunmasına daha çox fikir verirlər. Bu baxımdan ASE Baş redaksiyasının kütləvi tirajla nəşrə hazırladığı ..."Uşaq ensiklopediyası" təqdirəlayiqdir" [4; 29].

Atam 1993-cü ilə kimi Mətbuat, Elmi və ədəbi nəzarət redaksiyalarının müdiri vəzifələrində çalışmışdır. Sovet məkanında 1285 müəllif vərəqi həcmində olub, 55 minədək termin-məqalədən ibarət "Azərbaycan Sovet Ensiklopediyası"nın işıq üzü görməsi Azərbaycan kitab tarixində böyük hadisə idi. 10 cildlik fundamental bir kitabdakı məqalələr atamın rəhbərlik etdiyi Elmi və ədəbi nəzarət redaksiyasında yoxlanılıb təsdiqlənirdi. Belə bir gərgin, ciddi yanaşma tələb edən işin öhdəsindən gəlmək asan iş deyildi. Onun öhdəsindən yalnız Rəhimağa müəllim kimi gecə-gündüz yorulmaq bilmədən, yatıb-dincəlməyi, istirahət etməyi özünə qıymayan, cidd-cəhdlə çalışan, işinə böyük sevgi bəsləyən bir adam gələ bilərdi. Müdiriyyət də bunu çox yaxşı bilir və ona etibar edirdi. Onu da qeyd edim ki, "Azərbaycan Sovet Ensiklopediyası Sözlüyü"nün hazırlanması, strukturunun düzgün tərtib edilməsi üçün R.İmaməliyev həyatının böyük hissəsini sərf etmişdir. Qeyd edək ki, o, "Sözlük" lüğətinin yaradıcı heyətinin üzvü olmuş, lüğətin quruluşunu özü sərbəst tərtib etmişdir" [1, 21]. Rəhimağa müəllim 1994-2000-ci illərdə qırxa yaxın ziyalının AJB sıralarına qəbul edilməsinə zəmanət vermişdir. O, respublikada mətbuat, nəşriyyat, informasiya, ensiklopediya və lüğətçilik sahəsinin bilicilərindən idi. SSRİ məkanında nəşr edilmiş Gürcüstan, Belorus, Rusiya, Latviya, Litva, Estoniya, Moldova ensiklopediyalarının da Azərbaycanla əlaqəli çoxlu sayda məqalələrinin müəllifi olmuşdur. Vaxtilə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda üzümçülüyün inkişaf etdirilməsi haqqında verdiyi sərəncamla əlaqədar "Üzümçülük Ensiklopediyası"nın nəşri qərara alınmışdı. Bu işi də Rəhimağa müəllimə tapşırmışdılar. O da "Azərbaycan ampeloqrafiyası" üçün çox qısa bir zaman kəsiyində xeyli material toplamış, bütün üzüm və şərab növlərinin sözlüyünü tərtib etmişdi. Lakin sonradan bu iş nədənsə ASE-dən asılı olmayan səbəblərdən başqa təşkilat tərəfindən həyata keçirildi.

Rəhimağa müəllim 1993-cü ildə təqaüdə çıxdıqdan sonra çoxdan ürəyində yaşatdığı arzusunu həyata keçirməyə qərar verdi. O, Buzovnadakı ata ocağında "Boz

oğuz" ailə nəşriyyatını təsis etdi. Nəşriyyatın ata ocağında fəaliyyət göstərməsini o, babalarından gələn maarifçilik ənənələrinə sadiqlik kimi dəyərləndirirdi. Bu ocaqda onun ulu babaları Hacı İmaməli, Kərbəlayı Əziz də vaxtilə mədrəsə açmış, kəndin uşaqlarına həm dini, həm də dünyəvi elmləri təmənnasız tədris etmişdilər. İndi Rəhimağa müəllimin də nəşriyyatı yaratmaqda məqsədi ədəbi irsi öyrənilməmiş yazıçı və şairlərin, tarixin səhifələrindən və yaddaşlardan silinmiş, unudulmuş şəxsiyyətlərin əlyazmalarını toplamaq, çap edib xalqa çatdırmaq idi. Naşir kimi o, bunu vətəndaşlıq borcu hesab edirdi. Nəşriyyatın fəaliyyətə başladığı illər Azərbaycanın müstəqilliyinin ilk illərinə təsadüf edir. Respublikamız ağır sosial-iqtisadi böhran dövrünü yaşayırdı, iqtisadiyyatda çətinliklər mövcud idi. Kitab nəşrində böhran hökm sürürdü. Belə bir vaxtda kitab nəşri və təbliğinə böyük ehtiyac duyulurdu. Məhz o illərdə Rəhimağa müəllim çox böyük maddi çətinliklərlə üzləşməli olduğuna baxmayaraq, əzmlə çalışdı. Bu işdə onun ən yaxın köməkçisi anam oldu. Hətta ömrünün son illərini yatağa düşərkən nəşriyyatın bütün ağırlığı anamın öhdəsinə düşdü. Anam onun danışan dili, gedən ayağı, yazan əli oldu. Burada xüsusilə qeyd etmək istəyirəm ki, atam nəşr etdiyi kitabların heç birindən maddi gəlir gözləmirdi. Hamısını məktəblərə, kitabxanalara, muzeylərə, dost-tanışa, kənd adamlarına paylayır və bundan böyük zövq alırdı. Ona irad bildirəndə deyirdi: "Biliyi pula satmazlar. Bəlkə birinin imkanı yoxdur, amma oxumaq istəyir. O, savad qazansın, biz də savab".

R.İmaməliyevin təsis etdiyi "Boz oğuz" nəşriyyatında "Abşeron meyxanaları" (1993), A.Əliyevin "Solfecio" (1994), T.Şağaninin "Azər kimi diyarım var" (1994), Axund Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" (1995), V.Əfəndiyevin "Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri" (1996), R.İmaməliyevin "Məşədi Azər. Seçilmiş əsərləri" (1996), "Haşım bəy Sağib. Kim-kimədir" (1996), T.Səlimov-Şağani ilə birgə "Bakı kəndləri" (ensiklopedik məlumat kitabı) (1996), Hacı Hacıyevin "İstiqlalın əzablı yolu" (1996), Məşədi İlham Cəfəroğlunun "Quran duaları" (1996), Həkim Qəninin "Füzuliyə təxmislər" (1997), R.İmaməliyevin "İslam ensiklopediyası" (1997), "Buzovnalı Məhəmmədismayıl Asi. "Divan" (1997), T.Babanlı və V.İmaməliyevanın "Azərbaycan salnaməsindən səhifələr" (1997), "Vücudnamə, Saqinamə, Tövbənamə" (ensiklopedik məlumat kitabı) (1997), R.İmaməliyevin "Ensiklopediyaçı-şərqşünas Əbülfəz Məmmədzadə" (1997), T.İmaməliyeva, V.İmaməliyeva və R.İmaməliyevin "Hikmət və kəlam ensiklopediyası" (1998), Maqsud Mahmudzadənin "Şeyx Şamil və onun sələfləri" (sənədli-publisistik qeydlər) (1998), Kamal Rzayevin "Qarabağ müharibəsi: həqiqətlər və uydurmalar" (1998) və "Правда и ложь о Карабахской войне" (1998), Qumral Sadıqzadənin "Son mənzili Xəzər oldu" (Tarixi-publisistik roman) (1998), Qumri Dərbəndinin "Kənzül-məsaib", "Gülzari-Hüseyni" (1999); R.İmaməliyevin "Dünya poliqrafçıları, naşirləri və jurnalistləri" (1999) (ensiklopedik məlumat kitabı), "Yasin-çərəkə" (vəqf məqsədilə) (1998), Vidadi Babanlının "Ömürlük cəza" (1999), Buzovnalı Məşədi Balahüseyn Xoşhalın "Ata-babalarımızdan eşitdiklərim, bildiklərim, deyimlərim" (1999), Aydın Hüseynzadənin "Romantik şair Əlipaşa Səbur" (2000), Buzovnalı Məşədi Balahüseyn Xoşhalın "Ömür bağının çələngi" (2001), "Unudulmaz şəxsiyyətlər" (2002) və s. kitabları işıq üzü görmüşdür. Hətta 1997-ci ildə kitab sərgisində iştirak edən Ümummilli Lider Heydər Əliyev "İslam ensiklopediyası"nı görüb bəyənmiş, belə bir kitabın din adamları tərəfindən deyil, jurnalist tərəfindən tərtib edilməsini təqdir etmiş və kitabın yüksək səviyyədə nəşr olunmasını tövsiyə etmişdi. Yüksək səviyyədə ona görə ki,

kitabların çoxu maddi çətinlik üzündən bəzən qəzet kağızında çap edilirdi. Bu xəbər Rəhimağa müəllimi yeni-yeni kitablar nəşr etməyə ruhlandırmışdı.

Lakin təəssüflər olsun ki, Rəhimağa müəllim tükənməyən yazıb-yaratmaq arzularının böyük bir hissəsini həyata keçirə bilmədi. Rəhimağa müəllim ağır xəstə yatarkən ömür-gün yoldaşı Validə xanıma vəsiyyətini etmişdi: "Bilirəm ki, ömrümə az qalıb. Məndən sonra iki övladımı sənə tapşırıram". Anam təəccüblə: "Bu nə sözdür, deyirsən. Sən hələ çox yaşayacaqsan. Tezliklə sağalacaqsan. Bir də ki, sənin iki övladın mənim də övladımdır. Əlbəttə ki, onlardan muğayat olacağam" deyəndə atam onun sözünü kəsdi: "Mən uşaqları demirəm. İki kitabımı nəzərdə tuturam: "Jurnalistika terminlərinin izahlı lüğəti" və "Vətənnamə"ni. Onları nəşr edə bilmədim. Arzumu sən yerinə yetirərsən". Bir neçə il öncə bu hadisəni xatırlayanda anam da, mən də göz yaşlarımızı saxlaya bilmirdik. "Vətənnamə"nin həcmi böyük idi, həm də atamın topladığı məlumatlar artıq yenilənməli idi. Heç cür özümüzü toparlayıb kitab üzərində işə başlaya bilmirdik. Doğrudur, anam bu illər ərzində çoxlu sayda məlumat toplamışdı, atamın vəfatından sonra Buzovnada yeni nəsillərin nümayəndələri haqqında məqalələr hazırlamışdı. Amma cidd-cəhdlə kitabı səliqəyə salmaq, çapa hazırlamaq... İndi bu sözləri ürək rahatlığı ilə yazıram. Çünki artıq hər iki kitab işıq üzü görüb. Özü də elə onun arzuladığı kimi. "Nəşriyyat-poliqrafiya və jurnalistika terminlərinin izahlı lüğəti" vəfatından sonra 2009-cu ildə, "Buzovna Ensiklopediyası. Vətənnamə" kitabı isə 2022-ci ildə "Təhsil" nəşriyyatı tərəfindən yüsək səviyyədə çap olundu.

"Buzovna Ensiklopediyası. Vətənnamə"nin təqdimat mərasimi elə doğma kənddə, R.Axundov adına Mədəniyyət evində təntənəli surətdə musiqili-şeirli, sözlü-söhbətli bir gün kimi yaddaşlarda qaldı. O gün Buzovnanın görkəmli ziyalıları, Bakı Dövlət Universitetinin müəllimləri, Rəhimağa müəllimin dostları, ümumiyyətlə, kitaba qiymət verən insanlar "Vətənnamə"nin işığına toplaşmışdılar. Rəhimağa müəllimin şəxsiyyəti, fəaliyyəti, kitabsevərliyi haqqında o qədər xoş sözlər, şirin xatirələr söyləndi ki... Buzovnanın axundu, tədqiqatçı-alim, şair Hacı Soltan Əlizadə Rəhimağa müəllimin kitabsevərliyindən, onun nəşriyyatdakı yorulmaz fəaliyyətindən ürək dolusu xatirələrini danışdı, şair Arif Buzovnalı onun "Vətənnamə" üzərində çətin və gərgin əməyindən söhbət açdı, akademik Ziyad Səmədzadə Rəhimağa müəllimi uşaqlıq illərindən tanıdığını, onun nə qədər zəhmətkeş, cəfakeş insan olduğunu vurğuladı, ilk dəfə Səmədzadələr nəslinin görkəmli nümayəndəsi şair Haşım bəy Saqib haqqında kitabın məhz "Boz oğuz" nəşriyyatı tərəfindən çap olunması zamanı söhbətləri, görüşləri yada saldı. Bütün çıxışçılar irihəcmli "Vətənnamə"nin öhdəsindən onun ailə üzvləriylə birlikdə bacarıqla gəlməsini qəhrəmanlıq, şücaət adlandırdılar. Çünki bu qəbildən olan kitabların müxtəlif elm sahələri üzrə mütəxəssislər tərəfindən işlənib hazırlanması hamıya məlumdur. Çıxış edənlər həm də Rəhimağa müəllimin hamıya təmənnasız yardımlarından, ona müraciət edənlərin hər birinə səxavətlə kömək etməsindən gözəl xatirələr söylədilər. Hətta ailəmizin bilmədiyi, tanımadığı insanlar fasilədə bizə yaxınlaşıb çıxış üçün vaxt qalmadığından heyifsiləndiklərini bildirərək atam haqqında, onun haçansa onlara etdiyi əvəzedilməz yaxşılıqları haqqında ürək dolusu danışaraq ruhuna dualar etdilər. Bizim üçün – yəni ailəmiz üçün bundan böyük səadət, xoşbəxtlik ola bilməz. Burada dahi Şekspirin bir kəlamı yerinə düşür: "Gələcəyimiz üçün ən yaxşı sərmayə etdiyimiz yaxşılıqlardır".

Bir qədər də atamın xarakteri haqqında danışmaq istəyirəm. Çünki atamı yaxından tanıtmaq üçün mütləq onun xasiyyətini bilmək lazımdır. Əvvəla onu deyim ki, indi də atamın adı çəkiləndə biz, yəni onun ailə üzvləri "özümüzü yığışdırırıq".

Bu, onun çox sərt, tündməcaz xasiyyətli olmasından irəli gəlirdi. Özü həmişə deyərdi: "Mən tünd xasiyyətimdə ata babam Məşədi Ağaraziyə, rəhmdilliyimdə isə ana babam Məşədi Məsimə çəkmişəm". Atam həddən artıq zəhmli, hər şeydə – əxlaqda, məişətdə, işdə, təhsildə səliqə-sahman sevən bir insan idi. Sərt olduğu qədər də rəhmli, ürəyiyumşaq, ailəsinə, sevdiklərinə bağlı olan adam idi. Bir sözünü iki edən olmazdı. Qohumlar ona "Mirzə" deyə müraciət edirdilər. Balaca olanda bu sözün mənasını bilmirdim. Böyüyəndən sonra başa düşdüm ki, "Mirzə" ziyalı adamlara hörmət əlaməti olaraq müraciət formasıdır. O, demək olar ki, həm öz ailəsinin, həm də anamgilin ailəsinin başçısı idi. Ana babamın vəfatından sonra böyük qızın həyat yoldaşı olduğu üçün xalalarımın və dayılarımın da təəssübünü çəkərdi. Hamı hər işdə onunla məsləhətləşərdi. Amiranə səsi vardı, gözəl natiq idi. Bir məclis onsuz keçməzdi. Ən çətin, müşkül məsələlərin həlli üçün ona xahişə gələnləri naümid qaytarmazdı. Onlar üçün (özü üçün heç vaxt!) tanımadığı adamlara belə ağız açar və işi birdəfəlik həll edərdi. Yəni bunu deməkdə məqsədim odur ki, o, həmişə özünə, sözünün gücünə güvənən bir adam idi.

Hətta iş yerində də bir çox müşkül məsələləri həll etmək üçün ona müraciət edərdilər. ASE rəhbərliyinin onu Moskvaya ezamiyyətə göndərməsi də yaxşı yadımdadır. Çapdan çıxmış ASE cildləri Moskvada tonlarla yığılıb qalmışdı. Bir neçə nəfər bu məsələ ilə məşğul olsa da, heç bir nəticə əldə olunmamışdı. O zaman ASE Baş redaktoru vəzifəsini daşıyan akademik Cəmil Quliyev atamı Moskvaya ezam edərək kitabların Azərbaycana buraxılışını həll etməyi tapşırdı. Atam Moskvadan bir həftə sonra Bakıya qayıtdı, özü də əlidolu – ASE cildləri ilə yüklənmiş maşınlarla. O zaman Cəmil müəllim belə söyləmişdi: "Mən bilirdim ki, bu işin öhdəsindən Rəhimağa yoldaş gələr". Lakin onu da qeyd edim ki, atamın müdiriyyət tərəfindən sevilməsi heç də hamının ürəyincə deyildi. Hər zaman sözü üzə deyən, heç kəsdən çəkinməyən, tələbkar insanı bəzən qəbul etməyənlər daha çox olur. Onun bədxahları da boş dayanmır, əl altından "öz işlərini" görürdülər. Dəfələrlə atamın adı müxtəlif təltif siyahılarından silinmişdi. Belə vaxtlarda anam da mənəvi zərbə alırdı. Atam heç vaxt bu cür xırda hisslərlə yaşayan adamlara baş qoşmazdı. Amma bir zamanlar yaxşılıq etdiyi, əlindən tutub "çörəyə çatdırdığı", ensiklopediya işinin sirlərini öyrətdiyi adamların ikiüzlülüyü, dönüklüyü onu məyus edər, onlar haqqında evdə anamla söhbətlərində bir kəlmə deyərdi: "Adam gərək kişi olsun, kişi kimi yaşasın, öləndə də kişi kimi ölsün".

O, hər zaman başqalarından seçilən insan olub. Öz işgüzarlığı, tələbkarlığı ilə həmişə işdə seçilirdi. Məsələn, bunu da deyim ki, işində nə qədər ciddi olsa da, iclasları heç sevmirdi. Həmişə deyirdi ki, iclaslarda boş-boşuna danışmaqdansa oturub bir-iki məqalə yazmaq daha faydalıdır. Rəhbərlik də bunu bilirdi. Heç vaxt onu təkidlə iclasa çağırmazdılar. İstədiyi məsələ, ona aid olan iş olsaydı, iştirak edərdi.

O, çox tələbkar valideyn idi. İşdən yorğun qayıtmasına baxmayaraq, hər gün gündəliklərimizi yoxlayar, dərslərimizlə maraqlanardı. Humanitar fənlərə daha həssaslıqla yanaşardı. Mən hər yeni dərs üçün əlavə ensiklopedik məlumat öyrənib məktəbə getməli idim. O bunu həm mənim dünyagörüşümü inkişaf etdirmək üçün, həm də, nə gizlədim, mənim məktəbdə başqalarından bilik səviyyəmə görə seçilməyimçün tələb edirdi (O, həmişə bizə nəslimizin adını biliyimiz, savadımız, ən əsası da davranışımız, düzgün insan olmağımızla ucaltmağı təlqin edirdi). Evdə çox zaman məqalələri redaktə edəndə məni də bu işə cəlb edərdi. Deyirdi ki, mənə kömək elə, özün üçün öyrən. Sonralar "Boz oğuz" ailə nəşriyyatını təsis edərkən

mənə də nəşriyyat redaktorluğunu tapşırdı. Mənə etibar edirdi, amma yenə də gördüyüm işi yoxlayırdı.

Rəhimağa müəllim dostluqda da möhkəm adam idi. Onun ən yaxın dostları Xalq artisti, bəstəkar Xəyyam Mirzəzadə, vaxtilə Bakı Musiqi Akademiyasının professoru, hal-hazırda isə Türkiyənin Qars şəhərindəki Qafqaz Universiteti Dövlət Konservatoriyasının professoru və "Türk xalq musiqisi" kafedrasının müdiri, tədqiqatçı alim Rafiq İmrani, BDU-nun "Jurnalistika" kafedrasının müəllimi Mahmud Mahmudov, professorlar Şahin Fazil, Təvəkkül Şağani və Müsəddiq müəllim idi. Onun Ensiklopediyadakı iş otağı hər zaman dostlarının yığışdığı əziz məkan idi. Atamın xüsusi şövqlə dəmlədiyi pürrəngi çaydan içə-içə (qohumlarımız yaxşı dəmlənmiş çayı "Rəhimağa çayı" adlandırırdılar) musiqidən, poeziyadan, tarixdən, ədəbiyyatdan şirin söhbətləri bəzən axşam saatlarına qədər çəkərdi. Xalq artisti Nəcibə Məlikova da bu məclislərin hörmətli qonağı idi. Çox vaxt Nəcibə xanımın oğlu Saqib müəllim də anası ilə birlikdə valideynlərimin qonağı olardı. Nəcibə xanım bəy nəslinin övladı, şair Haşım bəy Saqibin qızı idi. Valideynlərimin bu ailəyə, onun istedadlı şəxsiyyətlərinə böyük rəğbəti vardı. Nəcibə xanım o zaman Buzovna Ensiklopediyası üçün öz nəslinin nümayəndələri, xüsusilə atası haqqında məlumatları bölüşər, özünün iştirak etdiyi tamaşalardan və filmlərdən fotoşəkilləri gətirərdi. Sonralar "Boz oğuz" nəşriyyatı təsis olunanda və atam Haşım bəy Saqibin yaradıcılığına müraciət edəndə Nəcibə xanımın böyük bacısı Nuriyyə xanım da tez-tez bizə gələr, keçmiş günlərdən maraqlı söhbətlər edərdi. Haşım bəy Saqib haqqında kitabın "Xatirələr" bölməsində Nuriyyə xanım bu nəcib işə görə nəşriyyata minnətdarlığını belə bildirmişdi: "Bu kiçik xatirələri söylədiyim anlarda, ömrümün doxsanıncı baharına qədəm qoyduğum illərində sanki yenidən atamla görüşdüm, gənclik illərimin büsatlı-atamlı günlərimə qayıtdım. Buna əsas səbəb də 1994-cü ilin avqust ayında atam və əsərlərinin nəşri ilə əlaqədar mənə edilən zənglər oldu. Bu nəcib işə qol qoyan şəxsə qiyabi də olsa heyran oldum. Görüşdük, özü də doğma kəndim Buzovnada, "Boz oğuz" nəriyyatında. Tanınmış naşir, jurnalist, ensiklopedik biliyə malik ziyalı Rəhimağa İmaməliyevlə şəxsən görüşdüm... Qətiyyətlə deyə bilərəm ki, atam Saqiblə böyük şair Məşədi Azərin nəvəsi, nəsil xələfi Rəhimağa bəy onların həqiqi dostluğunu öz əməli peşəsi ilə davam etdirir... Naşirin xeyirxahlıq göstərməklə atamın ruhunu şad edəcəyinə inanır, ona var ol deyirəm. Çünki öz kökünə söykənən belə insana hər bir gözəl nemət halaldır" [5, 56].

Görkəmli yazıçı Seyid Hüseynin də ailə üzvləri "Boz oğuz"un əziz qonaqlarından idilər. Yazıçının qızı Qumral xanım Sadıqzadə atasının acı taleyi haqqında yazdığı "Son mənzili Xəzər oldu" bioqrafik əsərini çap etdirmək üçün nəşriyyata müraciət edərkən Rəhimağa müəllim böyük məmnuniyyətlə razılaşdı. Kitabın çapa hazırlandığı dövrdə yazıçının oğlu, Xalq rəssamı Oqtay Sadıqzadə tez-tez bizə gələr, valideynlərinin taleyi, keçdiyi ağır həyat yolu haqqında xatirələrini danışar, ailə şəkillərini təqdim edərdi. Atam ürək ağrısı ilə alicənab həmsöhbətlərini dinləyər, o qədər mütəəssir olardı ki, göz yaşlarını saxlaya bilməzdi. Qısa müddətdə bu ailənin hər bir üzvü ilə səmimi dostluq telləri yaranmışdı. Kitabın nəşrindən sonra bu səmimiyyət daha da möhkəmləndi. Qumral xanımın həyat yoldaşı Aydın Hüseynzadə də atası, şair, maarifçi, "Yeni Füyuzat" jurnalının naşiri və məsul redaktoru olmuş Əlipaşa Səbur haqqında yazdığı kitabı "Boz oğuz"a həvalə etdi. Hər iki kitab tez bir zamanda işıq üzü gördü.

"Boz oğuz" nəşriyyatı ilə əlaqədə olan hər bir müəllif Rəhimağa müəllimlə ünsiyyətdən, onun maraqlı söhbətlərindən zövq alardı. Bu ünsiyyət getdikcə möhkəm

dostluğa çevrilərdi. Nəşriyyatın daimi qonaqları dərin biliyə malik mərhum filoloq Ramiz Faseh, hərbi həkim Cabbar Baxşıyev, hazırda Buzovnanın axundu, tədqiqatçı-şair Hacı Soltan Əlizadə, füzulişünas şair Həkim Qəni, akademik Ziyad Səmədzadə, qardaşı Fikrət Səmədzadə, bacısı Dilarə xanım Səmədzadə tez-tez evimizə gələr, "Vətənnamə"yə hər biri öz töhfəsini verərdi. Rəhimağa müəllim dostlarının qəlbində əliaçıq, ürəyi geniş, savadlı, xeyirxah insan kimi yaşayır. Professor Təvəkkül Şağani xatirələrində onu "şəhid" adlandırır: "Cənab peyğəmbərimiz buyurub: "Hər kim ki elm yolunda həlak olur, o, şəhid sayılır". Bu baxımdan Rəhimağa müəllim də şəhid sayıla bilər. Bu insan, həqiqətən, kitab yolunda, kitab nəşri yolunda bir şəhid ömrü yaşadı. Şəhid ölər, adı qalar. Lakin Rəhimağa müəllim sağlığında bir şəhid idi. O, şəhid ömrü yaşadı və şəhid kimi öldü. Mən bu fikri mübaliğəsiz söyləyirəm" [1, 139]. Professor Rafiq İmrani isə "Mən ürəyimdə həmişə ona qibtə etmişəm... Fikirlərimin cəmləşdiyi vaxtlarda Rəhimağanı xatırlayıram" deyir [1, 142]. Onun xəstələnməsi, nəşr edəcəyi kitabların, arzularının yarıda qalması ailə üzvləriylə bərabər dostlarını da çox məyus etdi.

Atam çox səxavətli insan idi. Son tikəsini də ehtiyacı olanlara verməyə (bölməyə yox, verməyə) hazır idi. Dünyanın bütün gözəlliklərinə aşiq idi. Amma dünya malında gözü yox idi. Ən dəbdəbəli həyatı ürəyindəki arzularında yaşadırdı, amma özü çox sadə və səliqəli həyat yaşayırdı. Onun haqqında illərlə danışsam, yazsam, söyləsəm, xatirələrimi nəql eləsəm, tükənməz. Amma mən sadəcə oxucuları bir zaman həyatda olmuş, yazıb-yaratmış, insanlara yaxşılıq etmək üçün bacardığını əsirgəməyən, qaya kimi sərt xasiyyətinin əksinə, ipək kimi yumşaq ürək sahibi olan bir insanla tanış etmək istədim. Bilsinlər ki, dədə-babalarımızın maarifçilik ideyalarını, öyrətmək amalını davam etdirən insanlardan biri də mənim atam – Rəhimağa İmaməliyev olub.

Əlaqə
E-mail: **tomiris_babanly@hotmail.com**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Abbasova, L. "Boz oğuz" nəşriyyatının yaranması və fəaliyyəti. – Bakı, Təhsil, – 2018
2. Abbasova, L. Görkəmli naşir Rəhimağa İmaməliyev. Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal. №1 (8). – Bakı, 2011, – s. 26-35
3. İmaməliyev, R. Buzovna Ensiklopediyası. Vətənnamə. – Bakı: Təhsil, – 2022
4. İmaməliyev, R. Uşaqlar üçün ensiklopediya. "Kitablar aləmində" jurnalı, 1987, №4
5. Haşım bəy Sağib. Kim-kimədir. – Bakı: Boz oğuz, – 1996
6. Hacı, Kənan. Ensiklopediyada bir ömür. https://reyting.az/muellifler/kenan-haci/78833-ensiklopediyada-bir-omur.html; 01-04-2022


**Məqaləyə istinad:** Tomiris Babanlı. Kitablara bağlı ömür. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 1 (24), 2023. səh.102-112.
DOİ: 10.30546/2702-0034.1.24.2023.102

*Tomiris BABANLY*

## LIFE RELATED TO BOOKS

### *Summary*

The article "Life related to books" is devoted to the life and creativity of Rahimaga Imamaliev, a man with a broad outlook, an encyclopedist, a journalist, a lexicographer and a publisher. R. Imamaliyev worked for many years in the Azerbaijani Soviet Encyclopedia, having worked his way up from junior scientific editor to head of the editorial office (1966-1993). Rahimaga Imamaliyev rendered invaluable assistance in the creation and publication of the one-volume "Azerbaijani Encyclopedia" (1967) and the ten-volume "Azerbaijani Soviet Encyclopedia" (1967-87). The preparation of a two-volume "Children's Encyclopedia" (1988) is also associated with his name. He is the author of many scientific, historical, literary and artistic articles, essays, reports, translations in periodicals, radio and televisions, universal encyclopedias and other publications.Until 1993, he worked as the head of the editorial office of the press and scientific and literary control. After retiring in 1993, he realized his biggest dream and in 1993 founded the family publishing house "Boz oguz" for the first time in Absheron. The purpose of the establishment of the publishing house was to collect manuscripts and publish the works of writers and poets whose literary heritage had not been studied, whose names had been forgotten and erased from the pages of history. As a publisher, he considered it his civic duty. Even though he had to face great difficulties during the years of his activity, he worked hard in this field until the end of his life. "Encyclopedia Buzovna Vatannama" ("Motherland") is valuable as the last work of the publisher. The article describes the publisher's activities as a tireless researcher and enlightener, as well as his good deeds.Books published by him about prominent Baku poets Meshadi Azer (1996), Hashim bek Saqib (1996), Muhammad Ismail Asi (1997), Alipasha Sabur (2000), "Encyclopedia Islam" (1997), "Encyclopedia of Wisdom" (1998), encyclopedic information collection "Polygraphists, publishers and journalists of the world" (1999 ), "Explanatory Dictionary of Publishing, Printing and Journalistic Terms" (posthumously 2009) tell about his fruitful work in the "Boz oguz" Publishing house.

*Томирис БАБАНЛЫ*

# ЖИЗНЬ, СВЯЗАННАЯ С КНИГАМИ

## *Резюме*

Статья «Жизнь, связанная с книгами», посвящена жизни и деятельности Рагимага Имамалиева – интеллигента из Бузовны, человека с широким мировоззрением, энциклопедиста, журналиста, лексикографа и издателя. Р.Имамалиев много лет проработал в Азербайджанской Советской Энциклопедии, пройдя путь от младшего научного редактора до заведующего редакцией (1966-1993). Рагимага Имамалиев оказал неоценимую помощь в создании и издании однотомной «Азербайджанской Энциклопедии» (1967) и десятитомной «Азербайджанской Советской Энциклопедии» (1967-87). С его именем связано и создание двухтомной «Детской энциклопедии» (1988). Он автор многих научных, исторических, литературно-художественных статей, очерков, докладов, переводов в периодической печати, радио и телевидении, универсальных энциклопедий и других изданий. До 1993 года работал заведующим редакцией печати и научно-литературного контроля. Выйдя на пенсию в 1993 году, он осуществил свою самую большую мечту и в 1993 году основал впервые на Абшероне семейное издательство «Боз огуз».

Целью создания издательства был сбор рукописей и издание трудов писателей и поэтов, чье литературное наследие не изучено, чьи имена забыты и стерты со страниц истории. Как издатель он считал это своим гражданским долгом. Несмотря на то, что ему пришлось столкнуться с большими трудностями в годы своей деятельности, он усердно трудился на этом пути до конца жизни. Энциклопедия Бузовны «Ветеннаме» ценна как последняя работа издателя. В статье рассказывается о деятельности издателя как неутомимого исследователя и просветителя, а также о его добрых делах. Изданные им книги о видных бакинских поэтах Мешади Азере (1996 г.), Хашим беке Сагибе (1996 г.), Мухаммеде Исмаиле Аси (1997 г.), Алипаше Сабуре (2000 г.), «Энциклопедия Ислама» (1997 г.), «Энциклопедия мудрости и изречений» (1998г.), энциклопедический-информационный сборник «Полиграфисты, издатели и журналисты мира» (1999), «Толковый словарь терминов издательско-полиграфического и журналистского дела» (посмертно 2009 г.), рассказывают о его плодотворной деятельности в издательстве «Боз огуз».